AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**ELAN**

**Bakı şəhəri** **9 avqust 2023-cü il**

**“Təhsildə könüllü fəaliyyətin təşkili” qrant müsabiqəsi**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi **“Təhsildə könüllü fəaliyyətin təşkili”** qrant müsabiqəsini elan edir.

Qrant müsabiqəsinin büdcəsi **427 000 manat** təşkil edir.

**Qrant müsabiqəsinin prioritet mövzuları:**
Məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması, ümumi təhsilin keyfiyyətinin yüksəldilməsi, peşə təhsilinin təşkili və təlim-tədris prosesinin qurulması, ali təhsildə əlçatanlığın, keyfiyyət və beynəlxalq rəqabətliliyin təmin edilməsi, ömürboyu təhsil sisteminin gücləndirilməsi, distant təhsil imkanlarının genişləndirilməsi istiqamətində ictimai fəallığın dəstəklənməsi.

**Qrant müsabiqəsinin iştirakçılarına verilən tələblər:**

1. Müsabiqə iştirakçısı Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatı olmalıdır;
2. Müsabiqədə iştirak edən qeyri-hökumət təşkilatı aşağıdakı sənədləri təqdim etməlidir:
   - Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin əslinin elektron surəti;
   - Hüquqi şəxsin dövlət qeydiyyatının reyestr çıxarışının əslinin elektron surəti;
   - Hüquqi şəxsin nizamnaməsinin əslinin elektron surəti;
   - Hüquqi şəxsin VÖEN-i və ona bağlı bank rekvizitləri.
3. Elm və Təhsil Nazirliyindən əvvəllər qrant almış, lakin qrant müqaviləsinin yekunlaşmasına baxmayaraq müqavilə üzrə öhdəliklərini tam yerinə yetirməyən qeyri-hökumət təşkilatları müsabiqədə iştirak edə bilməz;
4. Eyni qeyri-hökumət təşkilatı tərəfindən qrant müsabiqəsinə birdən artıq layihə təqdim edilə bilməz.

**Qrant müsabiqəsinə təqdim olunan layihə təkliflərinə verilən tələblər:**

1. Qrant müsabiqəsinə təqdim edilmiş layihə bu elana əlavə edilən "Layihə təklifi forması" sənədi əsasında tərtib edilmiş olmalı və qeyri-hökumət təşkilatının qanuni təmsilçisinin imzası (imza edən şəxs qanuni təmsilçi olmadıqda onun səlahiyyətlərini təsdiq edən hüquqi sənədlər təqdim edilməlidir) və möhürü ilə təsdiq edilmiş olmalıdır;
2. Layihə çərçivəsində intellektual xidmətlər göstərəcək mütəxəssislər barədə məlumatlar bu elana əlavə edilən "CV forması" əsasında tərtib edilməlidir;
3. Layihə təklifinin müddəti minimum 3 ay, maksimum növbəti tədris ilinin sonunadək olan müddəti əhatə etməlidir;
4. Layihə təklifinin büdcəsi maksimum **50 000 (əlli min)** manat təşkil etməlidir;
5. Qrant müsabiqəsinə təqdim olunmuş layihələrin məzmunu Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları, habelə Elm və Təhsil Nazirliyinin Əsasnaməsi ilə ziddiyyət təşkil etməməlidir.

**Müsabiqəyə müraciət üçün son tarix: 15.09.2023**

Bu tarixə ən azı 7 (yeddi) iş günü qalmış təqdim edilən sənədlərə texniki baxış keçiriləcək, verilən texniki tələblərə uyğunsuzluq aşkar edildiyi təqdirdə 3 (üç) iş günü ərzində iştirakçıya məlumat veriləcək. Bu zaman ən son təqdim edilmiş sənədlər qiymətləndirmə üçün əsas götürüləcək.
Sənədlərin qəbulu musabige@edu.gov.az elektron poçtu vasitəsilə həyata keçirilir.
Müsabiqəyə təqdim olunan sənədlər **"Layihə sənədlərinin texniki ekspertizası"** və "**Layihə təkliflərinin məzmun qiymətləndirilməsi"** mərhələsində qiymətləndirilir.

**Layihə sənədlərinin texniki ekspertizası mərhələsi:**

1. Bu mərhələdə iştirakçıların sənədləri və layihə təklifləri aşağıdakı tələblər əsasında yoxlanılır:
   - qrant müsabiqəsinin iştirakçılarına verilən tələblərin ödənilməsi;
   - qrant müsabiqəsinə təqdim edilən layihə təkliflərinə verilən tələblərin ödənilməsi.
2. Bütün tələbləri ödəyən layihə təklifləri "Layihə təkliflərinin məzmun qiymətləndirilməsi" mərhələsinə buraxılır, hər hansı tələbi ödəməyən layihə təklifləri isə qrant müsabiqəsində iştirakını dayandırır.

**Layihə təkliflərinin məzmun qiymətləndirilməsi mərhələsi:**

1. Bu mərhələdə layihə təklifləri 100 ballıq şkala üzərindən aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

- Uyğunluq – 10 bal;
  *(Layihənin müsabiqənin prioritet mövzusuna uyğunluğu və daxili vəhdəti)*
- Problemin qoyuluşu – 10 bal;
  *(Problemin təsviri və aktuallığı)*
- Məqsəd və gözlənilən nəticələr – 15 bal;
  *(Layihənin məqsədinin konkretliyi və problemin həllinə yönəlməsi, gözlənilən nəticələrin ölçüləbilən olması və qoyulmuş problemin həllinə zəmin yaratması)*
- Faydalılıq – 20 bal;
  *(Təhsilə və benefisiarlara verilən töhfə)*
- Fəaliyyət planı – 10 bal;
  *(Görüləcək işlərin problemin həllinə, layihənin məqsəd və vəzifələrinə yönəlməsi, vaxt təyini, ardıcıllıq və icra mexanizmi)*
- İcra potensialı – 5 bal;
  *(Tərəfdaşlıq və kadr potensialı)*
- Xərclər smetası – 20 bal;
  *(Xərclər smetası, onun layihənin məzmununa və orta bazar qiymətlərinə uyğunluğu)*
- Monitorinq, qiymətləndirmə və hesabatlılıq – 5 bal;
  *(Monitorinq və qiymətləndirmə metodologiyası)*
- Davamlılıq – 5 bal.
  *(Qazanılan müsbət təcrübənin davametmə metodologiyası)*

2. "Layihə təkliflərinin məzmun qiymətləndirilməsi" mərhələsində keçid balı 50 bal təşkil edir.

**Qrant qazanan layihələrin müəyyənləşdirilməsi**

1. Qrant ayrılması məqsədəmüvafiq hesab edilən layihələr qiymətləndirmə nəticələrinə əsasən yüksək bal ardıcıllığı prinsipi ilə keçid balını toplamış və qrant müsabiqəsinin büdcəsinə sığan layihələr içərisindən müəyyənləşdirilir.
2. Müvafiq hesab edildiyi təqdirdə qrant ayrılması nəzərdə tutulan layihələrin xərclər smetası optimallaşdırılır.

**Ünvan:** Bakı şəhəri, Xətai prospekti 49.

**Elektron poçt:** musabiqe@edu.gov.az